DÖNƏCƏK BİR NAĞILA

(Heydər Əliyevin əziz xatirəsinə)

El ağlayır məzarının başında
Qəlb göynəyir güllərin göz yaşında,
Tər çiçəklər təpələnib qarşında.
Ötər günlər, ötər aylar,fəsillər,
Hər ürəkdə heykəl qoyar nəsillər.

Xalq düşmüşdü min bəlaya, illətə,
Sinə gərdin çox əzaba, zillətə.
Azadlığı bəxş elədin millətə.
Nə tez çatdın insanların dadına,
Şərəf, şöhrət gətirdin öz adına.

El qalmadı dərd-sərin içində,
Rahat uyu tər güllərin içində,
Başın uca – bu ellərin içində.
Yox olmağın sığmaz sözə, ağıla
Son ünvanın dönəcək bir nağıla!..

***Şəfəq Əsgərova***

***Azərbaycan müəllimi. – 2003. -19 dekabr.***